**TƏLƏBƏNİN İMTAHANDA DAVRANIŞ QAYDALARI**

**DİQQƏT!** İmtahana gələrkən tələbələr universitetin vahid geyim formasında olmalıdır.

1. İmtahan zalında nəzarətçinin göstərdiyi sıra və yerdə oturmalısınız. Nəzarətçinin izahatını diqqətlə dinləməlisiniz.

2. İmtahan zamanı nizam-intizam qaydalarına ciddi əməl etməlisiniz.

3. İmtahan zalında danışmaq, bir-birindən nə isə soruşmaq, başqasının cavablarına baxmaq, köçürmək, köçürməyə şərait yaratmaq, köməkçi vasitələrdən (telefon, kitab, konspekt, kalkulyator, cədvəl və s.) istifadə etmək qəti qadağandır.

4. İmtahan zamanı davranış qaydalarına əməl etməyən tələbələr imtahandan xaric olunur və onların imtahan nəticələri ləğv edilir.

5. “Tələbə kodu”nu daxil etdikdə oradakı məlumatları diqqətlə oxuyun. Ekranda sizin soyadınız, adınız, atanızın adı və tələbə kodu yazılır. Bu məlumatlarda hər hansı çatışmazlıq aşkar etdikdə bu haqda nəzarətçiyə məlumat verin.

6. Test sualları və onların cavabları ilə əlaqədar sual vermək qadağandır. Nəzərə alın ki, test suallarında və onların cavablarında səhv ehtimalı çox aşağıdır. Bilin ki, hər hansı sualda səhv olarsa, onda həmin sual Elektron İmtahan Komissiyası tərəfindən araşdırılacaqdır.

7. Tələbələrə 50 test sualı təqdim olunur. Hər bir sualın düzgün cavabı bir balla qiymətləndirilir. Səhv cavablar ümumi nəticəyə təsir etmir.

8. İmtahanın başlandığı elan edilən andan etibarən ayrılan 1 saat vaxtdan səmərəli istifadə etməlisiniz. Bu müddət tamamlandıqda proqram avtomatik olaraq imtahanı bitirir.

9. İmtahan başlandıqdan sonra 15 dəqiqə ərzində zaldan çıxmağa icazə verilmir. Qalan vaxt ərzində imtahanı bitirib, imtahan vərəqəsinə topladığınız balı

yazıb, bu barədə imza edərək, bir daha zala qayıtmamaq şərti ilə, imtahanı yekunlaşdıra bilərsiniz.

**10. “İmtahan vərəqəsi”nə topladığınız balı yazıb, bu barədə imza etməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.**